# Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə Qəbələdə bölgə vətəndaşlarını qəbul etmişdir

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müvafiq tədbirlər görürlər.

Aprelin 24-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Qəbələ rayonunda vətəndaşları qəbul etmişdir. Qəbulda Qəbələ, İsmayıllı, Şamaxı və Şəkidən olan sakinlər və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak etmişlər.

Görüş zamanı edilən müraciətlərin əksəriyyəti təhsil və təlim-tərbiyə sahəsindəki məsələlərlə bağlı olmuşdur. Vətəndaşların müraciəti əsasən ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul, bir ali təhsil müəssisəsindən digərinə köçürülmə, qabiliyyət tələb edən ixtisaslara qəbul, təhsil haqqı, işə qəbul, qaçqın və məcburi köçkün abituriyentlərə, tələbələrə təhsil sahəsində güzəştlər və digər məsələlərlə bağlı olmuşdur. Müraciətlərin araşdırılması və həll edilməsi üçün qeydiyyat aparılmış, komissiyanın səlahiyyətlərinə aid olmayan müraciətlərin aidiyyəti qurumlara çatdırılacağı vətəndaşlara bildirilmişdir.



Qeydiyyatdan keçənlərlə yanaşı görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da TQDK-nın sədri Məleykə Abbaszadə tərəfindən dinlənilmiş və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülmüşdür.

**«Qəbələ».**
**Foto S. Umuyevindir.**

# Daim ucal, Azərbaycan

**(Əvvəli 3-cü səhifədə).**

Artıq həmin tarixi hadisənin başlanılmasına çox az vaxt qalıb. Dünyanın diqqət mərkəzində olan Azərbaycan bu əlamətdar günün ilk məkanı olaraq dünya tarixində özünəməxsus yer almaqdadır. Təbii ki, belə möhtəşəm hadisənin Bakıda keçirilməsi hamımız üçün şərəflidir. Çünki belə mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanımızın yeni uğurlarından biridir. İndi hər kəs həmin tarixi hadisənin başlanılmasını səbirsizliklə gözləyir. Azərbaycanı sevən hər kəs çox yaxşı bilir ki, bu əlamətdar gün ölkəmizin tarixinə qızıl hərflərlə yazılacaq. Bu beynəlxalq tədbir təkcə idman sahəsində deyil, bütün sahələrdəki uğurlarımızı artıracaq, inkişafımıza böyük təkan verəcəkdir. Hər kəs tərəfindən dəstəklənən bu beynəlxalq tədbir bundan sonrakı illərdə də idmanın, turizmin, mədəni, siyasi əlaqələrn inkişafına böyük zəmin yaradacaq. İndi beynəlxalq səviyyəli bu tədbirin uğurla həyata keçməsi üçün hər kəs üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Çünki geniş miqyaslı tədbirin uğurla həyata keçməsi hər birimiz üşün sevincgətiricidir. Azərbaycanı sevən, təbii gözəlliklərinə, zəngin mədəni, təbii irsinə, tarixinə bələd olan, bu məkanın canlı şahidi olmaq istəyən hər kəs üçün doğma vətənimiz "Xoş gəldin" deyir. Elə bu yerdə demək istərdim qoy doğma yurdumuzda həyat həmişə belə firavan olsun və gündən-günə çiçəklənən Azərbaycanımız daim yüksəklərə ucalsın.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin kiçik elmi işçisi.**

# Birinci Avropa Oyunlarının Bakıda keçirilməsinin ölkəmiz üçün böyük əhəmiyyəti var

Bu yay Azərbaycan beynəlxalq əhəmiyyətli daha bir möhtəşəm tədbirə ev sahibliyi edəcək. İyun ayının 12-28-də paytaxt Bakı şəhərində ilk Avropa oyunları keçiriləcək. İlk dəfə paytaxtımızda reallaşacaq oyunlarda 50 ölkədən 30-a yaxın idman növü üzrə 6 mindən çox idmançının yarışacağı gözlənilir.

Beynəlxalq Olimpiya Komitəsinin dəstək verdiyi Avropa Oyunları bir çox innovativ idman növünü özündə cəmləşdirir. İdman növlərinə aerobika, akrobatika, batut, idman gimnastikaları, bədii gimnastika, atıcılıq, atletika, avarçəkmə, badminton, basketbol, BMX Velosiped idmanı, boks, çimərlik futbolu və voleybolu, cüdo, dağ və şosse velosipedi idmanları, güləş, kamandan oxatma, karate, qılıncoynatma, sambo, sinxron üzgüçülük, stolüstü tennis, su polosu, suya tullanma, taekvondo, triatlon, üzgüçülük və voleybol daxildir. Artıq Avropa Komitələrinin bütün üzvləri yarışlarda iştirak etmək və mübarizə aparmaq üçün Xəzər dənizinin sahilində yerləşən paytaxt şəhərimizə dəvət olunublar. Avropa Oyunları Komitələrinin layihələndirdiyi oyunlar bu qurum tərəfindən idarə olunacaq və «Bakı 2015» Avropa Oyunları Əməliyyat Komitəsinin dəstəyi ilə həyata keçiriləcək.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Əvvəlcə onu qeyd edək ki, Bakı biznes, turizm və idman sahələrində Avropa üzrə regional mərkəzə çevrilməkdədir.

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsindən də gözlənilən odur ki, idman Azərbaycanı gələcəkdə Avropa Oyunlarının ən birincisi olacaq. Bakı—2015 Avropa Oyunlarının əsas məqsədlərindən biri idmanın potensialını geniş kütlə səviyyəsində artırmaqdan və idmanı birbaşa Azərbaycan xalqının gündəlik həyatına daxil etməkdən ibarətdir. Oyunlardan sonra idman obyektləri gələcək beynəlxalq idman yarışları və əyləncə xarakterli tədbirlərin keçirilməsi baxımından bütün imkanlara sahib olacaq. Həmin yeni obyektlər Azərbaycan gəncləri və idmançıları üçün özündən sonra faydalı irs qoyacaq. Bununla yanaşı, Azərbaycan hökuməti indiyədək bir sıra vacib nəqliyyat layihələrinə investisiya qoyub. Bu layihələr oyunlara qədər tam hazır olacaq və ölkəyə böyük turizm, ticarət və iqtisadi faydalar qazandıracaq. Belə layihələrə metro və ictimai nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni avtomobil yollarının çəkilməsi və Bakını Türkiyə, Gürcüstan və Çinlə birləşdirəcək beynəlxalq dəmiryol şəbəkəsinin inkişaf etdirilməsi daxildir.

Son olaraq qeyd edək ki, paytaxt Bakımızın beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi azərbaycanın nüfuzunu, etibarını dünyada daha da artırmaqdadır. Məhz bu mühüm nüfuzun, etibarın, ölkəmizdə həyata keçirilən hərtərəfli inkişafın nəticəsində AOK Baş Assambleyasının 2012-ci ildə qəbul etdiyi qərarın ardınca 2013-cü ildə İslam Həmrəyliyi İdman Federasiyasının Baş Assambleyası da IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək hüququnu Azərbaycana həvalə edib.

**Aslan CƏLİLOV.**

# Qəbələ Peşə Məktəbində "Dini tolerantlığa münasibətiniz" mövzusunda dəyirmi masa

Tədbir iştirakçıları tərəfindən XX əsrin sonunda ikinci dəfə öz müstəqilliyini elan edən ölkəmizdə bütün stereotiplərin sındırıldığı və təkcə dövləti anlamda deyil, həm də mənəvi sferada azadlığın əldə edildiyi və ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə bu münasibətlərin daha da yaxşılaşdırıldığı səsləndirilmişdir. Çıxış edənlər Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrıseçkiliyin və qarşıdurmanın baş verməd iyini, qarşılıqlı etimada və hörmətə əsaslanan tolerantlığın və dözümlülüyün cəmiyyətimizi səciyyələndirdiyini və gözəl ənənələrin yarandığını vurğulamışlar.

Bildirilmişdir ki, Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə, mehriban yaşadığı bir ölkəyə, şərqlə qərb, qərblə islam dünyası arasında, eləcə də xalqlar, mədəniyyətlər və sivilizasiyalararası körpüyə çevrilmişdir. Tədbirdə ölkə başçısı cənab İlham Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqətin sayəsində son illər Azərbaycanda dini tolerantlıq mövzusunda bir sıra iri həcmli beynəlxalq tədbirlərin keçirildiyi və unikal tolerantlıq modelinin yaradıldığı nəzərə çatdırılmışdır.

**N. ATAKİŞİYEV.**

# Heydər Əliyev irsi maraqla öyrənilir

Rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsini davam etdirirlər. Bu ilin fevral ayının əvvəlindən başlanan məşğələlər həftədə 2-3 dəfə təşkil olunur. Hər dərs məşğələsi də 2 akademik saat davam edir. Dərslərə mütəmadi olaraq 35 nəfərdən 40 nəfərə qədər və bəzi hallarda daha çox məktəbli cəlb olunur.

Məşğələləri daha yüksək səviyyədə tədris etmək üçün rayonun ən təcrübəli tarix müəllimləri dəvət olunur. Aprel ayında keçirilən məşğələlərə 300 nəfərdən cox şagird cəlb olunmuşdur. Sonuncu məşğələrdə Kürd və Hacılılı kənd tam orta məktəblərindən dərslərə 80-ə qədər şagird cəlb olunmuşdur.

Aprel ayı ərzində məşğələləri tarix müəllimləri Azad Hacıyev, Babək Məmmədov, Zamiq Əzizov aparmışlar. Dərslərdə «Ümummilli lider Heydər Əliyevin ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır» mövzusu tədris edilmişdir. Müəllimlər məktəblilərə ümummilli liderin Azərbaycana rəhbərliyinin bütün dövrlərində, xüsusilə 1993-2003-cü illərdə ölkədə baş alıb gedən xaosların aradan qaldırılması, ölkənin müstəqilliyinin qorunub-saxlanması, möhkəmləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər, ölkənin sosial-iqtisadi inkişafı üçün yeni layihələrin irəli sürülməsi haqqında geniş məlumat vermişlər. Bu layihələrin və tədbirlərin cənab Prezident İlham Əliyev tərəfindən icrasının təmin olunması, ölkənin beynəlxalq aləmdə hazırki durumu əsaslı faktlarla şagirdlərə çatdırılır.

Məktəblilər dərslərdə eyni zamanda Heydər Əliyevin siyasi fəaliyyətinə həsr olunmuş video-çarxa tamaşa edir, muzeyin ekspozisiya salonunda nümayiş etdirilən stendlərlə tanış olurlar.

Mərkəzdə Heydər Əliyevin irsini öyrədən dərslər davam edir.

**Heydər Əliyev Mərkəzi.**